https://doi.org/10.36719/2706-6185/44/49-53

**Zəminə Əsgərova**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
fəlsəfə üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-5906-9588
zamina.asgarova@azmiu.edu.az
**Vəfa Əhmədova**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
fəlsəfə üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-6211-2479
vafa.ahmadova@azmiu.edu.az
**Aygün Məmmədova**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
https://orcid.org/0000-0002-2227-2782
aygun.mammadova@azmiu.edu.az

# Dəyərlərə dair sosioloji konsepsiyalar və nəzəriyyələr

**Xülasə**

Məqalədə dəyərlər probleminə istinad edən klassik və müasir sosioloji nəzəriyyə və konsepsiyalar araşdırılır. Dəyəri, əsas dəyərləri, sosioloji dəyərləri, dəyər meyarları və inkişafı müəyyən edilməklə, onların şəxsiyyətin və cəmiyyətin həyatındakı rolu və əhəmiyyəti ifadə edilir.

Müəllif Azərbaycan cəmiyyətində və sosiologiyasında dəyər probleminə yanaşaraq nəzəri və praktiki tövsiyələr verir.

***Açar sözlər:*** *dəyər, sosiologiya, konsepsiya, nəzəriyyə, sosial dəyərlər, baza dəyərlər, ideal tip, klassik sosiologiya, müasir yanaşmalar, azərbaycançılıq, ümümi bəşəri dəyərlər*

**Zamina Asgarova**
Azerbaijan University of Architecture and Construction
PhD in Philosophy
https://orcid.org/0000-0001-5906-9588
zamina.asgarova@azmiu.edu.az
**Vafa Ahmadova**
Azerbaijan University of Architecture and Construction
PhD in Philosophy
https://orcid.org/0000-0001-6211-2479
vafa.ahmadova@azmiu.edu.az
**Aygun Mammadova**
Azerbaijan University of Architecture and Construction
https://orcid.org/0000-0002-2227-2782
aygun.mammadova@azmiu.edu.az

# Sociological Concepts and Theories About Values

**Abstract**

Classic and modern sociologic theories and concepts, referring to the problem of values, are researched in the article. Defining value, basic values, sociologic values, value criteria and development their role and significance in the life of the individual and society are expressed

The author presents the theoretical and practical recommendations, approaching to the problem of value in Azerbaijani society and sociology.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

***Keywords:*** *value, sociology, conception, theory, social values, basic values, ideal type, classic sociology, modern approaches, Azerbaijanism, common human values*

## Giriş

Müasir sosiologiyada ictimai şüurun mühüm elementin kimi dəyərlərə dair bir çox konsepsiya və nəzəriyyələr mövcuddur.

Dəyər nəzəriyyəsi XIX əsrdə Qərbdə meydana gəlmişdir. Dəyərlər haqqında ilk sosioloji təsəvvürlər Vilhem Dilteyə məxsusdur. O, belə hesab edirdi ki, insan "hisslərdə yaşanmış dəyərə malikdir" (Dil'tey, 2003, s. 124). V. Diltey dəyəri ruhi gerçəklik, hisslərdən ayrılmaz, həzz almaq üçün istifadə olunan həyati sərvət hesab edir.

Klassik sosiologiyanın görkəmli nümayəndəsi H. Spenser insan cəmiyyətinə bioloji orqanizm kimi baxır, onlar arasında əsaslı fərqlər görürdü. Sosioloqun fikrincə, "cəmiyyət öz üzvlərinin rifahı üçün mövcuddur" (D'yurkkheym, 2001, s. 287). H. Spenser fərdi azadlığı dəyər hesab edirdi. Onun fikrincə, müasir cəmiyyətdə dövlətin rolu məhdud olmalıdır, çünki güclü dövlət insan azadlığını məhdudlaşdırır. Onun nöqteyi-nəzərindən bəşəriyyətin ali dəyəri tələbatlarının ödənilməsinin mövcud olduğu cəmiyyət ola bilər. Belə cəmiyyətdə bir fərd digər fərdin hüquqlarını pozmamalıdır. H. Spenserin ardınca fransız sosioloqu Emil Dürkheym dəyərlərə dair öz konsepsiyasını yaratmışdır. O, özünün "dəyərli və real" mühakimələr əsərində dəyərlərə müxtəlif nöqteyi-nəzərdən yanaşır. Birinci nöqteyi-nəzərə görə, "əşyanın dəyəri sadə təəssüratın təsdiq və etiraz edilməsi kimi çıxış edir. Bu cür təəssüratı əşya öz daxili xüsusiyyəti kimi yaradır" (D'yurkkheym, 2001, s. 29). İkinci nöqteyi-nəzərə görə, dəyərlərin meydana gəlməsi zamanı "real mühakimlərə" əsaslanmaq lazımdır. E. Dürkheym təsdiq edirdi ki bütün dəyərlər bizdən kənarda, bizim ətrafımızda mövcuddur. Fransız sosioloqu "dəyərli" və "real" mühakimələr arasında idela xüsusi əhəmiyyət verirdi. İdeallığın ilk növü realdır. İdeal cisim üçün simvol rolunu oynayır. Digər növ dəyər ideallarıdır. Onun üçün aid olduğu reallığın şəklinin dəyişdirilməsidir. Burada cisim ideal üçün simvola çevrilir və müxtəlif insanlar tərəfindən onun təsəvvür edilməsinə imkan verir. E. Dürkheym sosiologiyada özünün dəyər konsepsiyası ilə məşhurdur.

## Tədqiqat

Fransız sosioloqu duyğunu (kültürü), düşüncəsini (mədəniyyəti) toplum yaradır "fikrini irəli sürür" və toplumda kolektiv şüurun rolunu qeyd edir, iş bölümünü (əmək bölgüsünü) sosial həmrəyliyin əsası sayırdı. Bununla da o, tarixi materializmin iqtisadi modelini arxa plana keçirtdi. "Milli iqtisadiyyatımız ancaq iqtisadi gerçəkliyimizi tədqiq etdikdən sonra iqtisadi hadisələrdən normal və xəstə olanları ayırd edə biləcək və ancaq o zaman iqtisadi xəstəliklərimizin müalicəsi ücün arayış və ya resept verə biləcəkdir" (Abbasov, 2009, s. 37).

Digər Qərb tədqiqatçısı Maks Veber ilk sosioloqlardan biridir ki, dəyər probleminin sosiologiyada metodoloji əsasını yaratmışdır. O, dəyəri hər hansı tarixi dövrün qaydası hesab edir, belə dövrə maraqların xas olduğunu göstərirdi. M. Veberin sosiologiyada tətbiq etdiyi əsas metodoloji vasitə *ideal tip nəzəriyyəsidir* (Veber, 2000, s. 46). M. Veberin sosiologiyasının metoloji spesifikası məhz ideal tip təlimi ilə müəyyən edilir. O, eyni zamanda dəyər mühakimələrindən azad müddəa da irəli sürürdü. İdeal tip ideyası ilə o, elə bu anlayışlar sistemi irəli sürürdü ki, hər hansı tətqiqatçı müxtəlif tarixi materiallardan baş çıxara bilir, ideal tipli realın modelinə yaxınlaşa bilirdi. Veberin ideal tip ideyasında bu və ya digər hadisənin "mədəni mənası" göstərilir. O, empirik materialı sistemləşdirməyə ideal tipik nümunələrə yaxın nöqteyi-nəzərdən onun aktual vəziyyətini şərh etməyə imkan verir (Golovin). M. Veber ideal tipin üç növünü — ənənəvi, rasional və harizmatik tipləri irəli sürür. Bu tiplər əsasında o, aşağıdakı dəyər tiplərini göstərmişdir:

1. Qardaşlıq məhəbbəti.
2. Formal rasionallıq.
3. Kortəbii — ektamik başlanğıc, harizma.

Bu ideal tiplər empirik reallıqda sırada təmiz halda çıxış etmir, ancaq bir-birinə qarşı duran əsas dəyərləri özündə əks etdirir. M. Veberə görə, "dəyər sosial subyekt üçün müəyyən əhəmiyyətə malik normadır" (Talantova).

Dəyər mühakiməsindən "azad" müddəası yalnız sosioloji deyil, hər hansı elmi metodologiya üçün mühüm elementdir. Bu sahədə Veber iki problemi fərqləndirir:

1. Ciddi mənada dəyərlərin mühakimələrdən azad olması problemi.
2. İdrak və dəyərlərin qarşılıqlı münasibətləri problemi.

Veber sosiologiyada dəyər problemi üçün mühüm olan "idraki maraq" anlayışını irəli sürmüşdür. Bundan başqa, onun "dəyər ideyaları" anlayışında var ki, onu bütövlükdə dünyaya yanaşmanın spesifik mədəni tarixi üsulu müəyyən edir. Dəyər ideyalarının mövcudluğu mədəniyyət haqqında transendental zəmin rolunu oynayır. İdrakda əsas dəyər zamanın ruhu, mədəniyyətin ruhudur. İdeylar və maraqlar zamanca dəyişir və ideal tiplərdə mədəniyyətlər haqqında, anlayışlar haqqında elmlərdə inkişaf etdirilir.

M. Veberin ideal tiplər haqqında sosioloji təlimində modernləşmə və sekülyarlaşma dəyərləri əsas yer tutur. M. Veber bu sekülyarlaşma prosesi haqqında "Protestant əxlaqı və kapitalizmin ruhu" adlı əsərində sekülyarlaşmanı əxlaqi və inanc sisteminin getdikcə çökməsi kimi dəyərləndirmişdir. Modern cəmiyyətin ana fəlsəfəsi "insanı" ən mükəmməl varlıq olaraq qəbul edir (Qaraqardılu). Dəyərlə bağlı M. Veberin əsərləri XX əsrdə sosioloji elmi biliyin inkişafında mühüm rol oynamışdır. Lakin təəssüf ki, ondan sonrakı sosiologiya elmi alman aliminin nəzəri və metodoloji irsindən geniş istifadə etsə də, o, sözün formal mənasında öz məktəbini yarada bilməmişdir.

Klassik sosioloqların baxışları, nəzəriyyələri və konsepsiyaları əsasında belə nəticəyə gəlmək olar ki, dəyərlər fərdlərin və bütövlükdə cəmiyyətin ayrılmaz hissəsini təşkil edir. Klassik sosioloqlar belə hesab edirlər ki, dəyərləri insanlar özləri yaradır və bu dəyərlər əsasında onların davranışları tənzim olunur.

Azərbaycan klassikləri də sosioloji fikir tarixində dəyərlərə aid baxışları ilə mühüm rol oynamış, milli mənəvi dəyərlərimizi inkişaf etdirmişlər. XIX əsrdə Azərbaycan sosioloji fikrində ənənəvi və müasir dəyərlərin vəhdəti olan maarifçilik, respublikaçılıq və azərbaycançılıq formalaşmışdır. Azərbaycan tədqiqatçısı, professor N. Şəmsizadə göstərir ki, H. Zərdabi, H. Z. Tağıyev, Ə. Hüseynzadə, Ə. Topçubaşov, M. Ə. Rəsulzadə, C. Məmmədquluzadə, Ü. Hacıbəyov, M. Ə. Sabir və H. Cavid kimi şəxsiyyətlərin və onların başçılıq etdiyi ədəbi tarixi cərəyanların fəaliyyəti sahəsində XIX əsrin sonu — XX əsrin əvvəllərində Azərbaycanda milli ideologiya formalaşdı və tarixdə ilk dəfə 1918-ci ildə milli dövlətin, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələndi. Özündə türkçülük, islamçılıq və qərb dəyərlərini birləşdirən həmin ideologiya azərbaycançılıq idi (Şəmsizadə, 1996, s. 38). Göründüyü kimi, azərbaycançılıq milli və ümümi bəşəri dəyərlərin vəhdəti kimi meydana gəlmişdir.

XX əsrin əvvəllərində Qərbdə dəyər problemi sosioloqlar Uilyam Tomas və Florian Znametski tərəfindən tədqiq olunmuşdur. Onlar iqtisadi, elmi, mənəvi-ruhi, dini, sosial dəyərlə yanaşı, insanı ən ali dəyər hesab edirlər.

Müasir Qərb tədqiqatçılarından T. Parsons dəyər nəzəriyyəsinə əsaslı töhfə bəxş etmişdir. O, dəyərlərin mühüm əhəmiyyət kəsb etdiyini göstərir, onları ruhi-mənəvi deyil, sosial kontekstdən nəzərdən keçirirdi (Parsons, 1999). T. Parsons belə hesab edirdi ki, dəyərlər sistemi eyni zamanda insanları həm birləşdirir, həm də ayırır. Məhz müxtəlif siniflərin, təbəqələrin və millətin yaranması səbəbi dəyərlərdir. Dəyərlər onların özünəməxsusluğunu müəyyənləşdirir, onları bir-birindən fərqləndirir.

Müasir sosioloqların baxışlarını təhlil edərək Parsons belə qənaətə gəldi ki, dəyərlər bilavasitə cəmiyyətin formalaşmağına təsir edir, insanların həyatlarının, baxışlarının və davranışlarının elementi kimi inteqrasiya funksiyasını yerinə yetirir, müəyyən sosial əlamətlərinə görə insanları birləşdirir və bir-birindən ayırır, cəmiyyəti siniflərə, qruplara bölur. Fərdin şüurunda dəyərlərin dəyişməsinə gəldikdə, onu qeyd etmək lazimdır ki, onlar bilavasitə insanın özünə təsir edir.

Dəyərlər heç bir vaxt bir-birindən ayrı olmayıb, həmişə bütöv bir sistem əmələ gətirir. Hər bir cəmiyyət insanların qəbul etdiyi öz dəyər stukturunu müəyyən edir. Müxtəlif dövrlərdə dəyərlər mühüm rol oynamış, sosioloqlarin əksəriyyəti dəyər problemini öyrənərək müəyyən etmişlər ki, dəyərlər ilk növbədə insan davranışının tənzimləyici mexanizmidir, eyni zamanda cəmiyyətin ayrılmaz hissəsi və fərdin idealı normasıdır.

Dəyərlərə mədəniyyət sosiologiyasının kateqoriyası kimi baxan "tədqiqatçılar" dəyərlər sisteminin sosial ümümiliyini fərdlərin maraqlarının və tələbatlarının mənəviyyatlarının, mədəniyyətinin əsası kimi dəyərləndirir, dəyərlər sisteminin ikili rol oynadığını, fərddə subyektin özunü qiymətləndirilməsi, cəmiyyətdə sosio-mədəni sistem olduğunu iddia edir.

Ənənəvi dəyərlər həyat normaları və məqsədlərin qorunub saxlanmasını təmin edir, müasir dəyərlər ictimai həyatda, onun ayrı-ayrı sferalarında baş veren dəyişikliklərin təsiri altında əmələ gəlir. Bu kontekstdə yaşlı və gənc nəsillərin dəyərləri müqayisə olunur, onlar arasında münaqişələrin və gərginliklərin səbəblərini anlamağa imkan verir.

Sosiologiyada bəzi hallarda baza dəyərlərin anlayışından da istifadə edirlər. Bu baza dəyərlər şüur və davranış kimi çıxış edir, insana intellektual zənginlik bəxş edir. Baza dəyərləri şəxsiyyəti formalaşdıraraq təbiət üzərində hökmranlığa əsaslanan sağlam həyat tərzinə, ahəngdarlığa, vəhdətə, tərəfdaşlığa, əməkdaşlığa, yeni "həyat keyfiyyətinə", insanlar arasında hümanist mədəniyyətə xasdır.

Dəyər problemi sosiologiya üçün aktualdır. Bu problem elmlərarası tədqiqatçı obyektir. Dəyərin tədqiqinə sintetik yanaşma mövcuddur. Mövcud yanaşmaları ümümiləşdirərək dəyərləri aşağıdakı kimi müəyyənləşdirmək olar:

1. Dəyərlər insanlara faydası olan real predmetlərdir (funksion yanaşma).
2. Dəyər insan üçün predmet əhəmiyyətidir (siqnidikativ yanaşma).
3. Dəyər subyektiv gerçəkliyə müsbət münasibəti ifadə edən ideal predmetdir (qiymətləndirici yanaşma) (Spiridonova, 2004). Müəllif dəyərin çoxsaylı təsnifatında müxtəlif meyarların olduğunu qeyd edir.

Dəyərlərin müəyyənləşdirilməsi üçün aşağıdakı meyarlardan istifadə olunur — sosial ümumiliyə görə, sosial subyektə görə (ümumbəşəri, milli-etnik sosial-qrup, fərdi dəyərlər); demoqrafik əlamətlərinə görə (qadın, kişi, gənclik, uşaqlıq, qocalıq dəyərləri); obyektiv sahələrinə görə (cisim, işarələr, simvollar, davranış formaları dəyərləri); fəaliyyət sferalarına görə (əmək, idrak, ünsiyyət dəyərləri); tələbatların strukturuna görə (iqtisadi, etik-dini, nəzəri, etika dəyərləri); zaman meyarlarına görə (dövrün, yaşın, nəslin dəyərləri); həyat tərzinin gedişinə görə (aristokratik, şəhər, kənd dəyərləri); mütləq məqamlarına görə (əbədi, nisbi); ictimai münasibətə görə (mütərəqqi, mürtəca, mühafizəkar, inqilabi, innovasiya); fəaliyyət xarakterinə görə; həyatda seçmə imkanlarına görə (real, utopik, xəyali); əhəmiyyətinə görə (əsas, köməkçi, əsas ikinci dərəcəli dəyərlər) və s.

Sosiologiyada dəyərlər anlayışının metodoloji əhəmiyyətindən bəhs edərkən kateqoriya aparatına "sosial dəyərlər" anlayışı da daxil edilir. Sosial dəyərlər geniş mənada cəmiyyətdə maddi və mədəni dəyərlərə məxsusdur (Tsennosti kak kategoriya sotsial'noy kul'tury).

Azərbaycan tədqiqatçısı N. Abbasov yazır: "Bəşər mədəniyyəti tarixinin araşdırması sahəsindəki qazanılmış təcrübələr sübut edir ki, insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Təbiətin hər bir xalqa bəxş etdiyi ən qiymətli miras onun milli-mənəvi dəyərləridir. Bu səbəbdən də hər şeydən əvvəl və hər sahədə, o cümlədən mədəniyyət siyasəti sahəsində mədəniyyətin təsbiti mövzusuna üstünlük verilməlidir. Milli-mənəvi dəyərlər gələcək nəsillərə daha da zənginləşdirilmiş halda ötürülməlidir. Şübhəsiz ki, mədəniyyət dəyişmədən və zənginləşdirilmədən varlğını qoruya bilməz. Bu məqsədlə müasir mədəniyyət siyasətində yaradıcı və qoruyucu səciyyəli hər cür fəaliyyət təşviq edilməli, yeni qabiliyyətlərin kəşf edilməsi, istiqamətləndirilməsi, dəyərləndirilməsi fəaliyyətinə mühüm əhəmiyyət verilməlidir" (Abbasov, 2009). Müəllif Azərbaycan dəyərlərinin millilik və ümumbəşəriliyin sintezi olduğunu, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişafında Azərbaycan dövlətinin mədəniyyət siyasətində mühüm rol oynadığını diqqətə çatdırır.

N. Abbasov daha sonra yazır: "Azərbaycan dövləti öz daxili və xarici siyasətini yeni tarixi şəraitə, müasir tələblərə uyğun olaraq, xalqımızın tarixi və mədəni ənənələrinə, dilimizə, milli-mənəvi dəyərlərimizə istinad edərək həyata keçirir. Müstəqilliyimizin əldə olunmasından sonra həyata keçirilən mədəniyyət siyasəti milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və gələcək nəsillərə çatdırılması üçün böyük zəmin yaradır. Xalqımızın əldə etdiyi bu böyük nailiyyət milli sərvətimiz olan mənəvi dəyərlərimizin istifadəsini, bəşəri dəyərlərin tərkib hissəsi kimi inkişafını və inteqrasiyasını təmin edir. Dövlətimizin belə bir demokratik mədəniyyət siyasəti xətti tutduğuna və müasir dünya mədəniyyətinə interqasiya olduğuna görə, mədəniyyətimizin özündə böyük bir

dəyişiklik etmədən, yəni mühafizə edilməsi zəruri olan milli şəxsiyyətimizi təşkil edən xarakterik keyfiyyətimizi budamadan, təcrübəyə və elmin mütərəqqi nailiyyətlərinə söykənərək, forma dəyişikliklərini şüurlu surətdə aparmaq məcburiyyətində olduğumuzu qəbul etməliyik" (Abbasov, 2009, s. 5). Müəllif haqlı olaraq müasir qloballaşma dövrundə xalqımızın dqnya mədəni imkanına inteqrasiya olunduğunun zərurətə çevirdiyini əsaslandırır.

## Nəticə

Ulu öndər Heydər Əliyev milli-mənəvi dəyərlərimiz haqqında deyirdi: "Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət, həqiqi xalq ola bilməz". Daha sonra isə o deyirdi: "Azərbaycan xalqı cürbəcür hökmdarların əlində olubdur, tarix boyu nə qədər əziyyətlər çəkibdir. Ancaq dilini də, öz mənəvi, əxlaqi mentalitetini də saxlayıbdır. Bu xalqımızın nə qədər dərin kökləri olduğunu göstərir" (Azərbaycan dili və ədəbiyyatina hərs olunmuş sayt). Milli-mənəvi dəyərlərimiz əsrlərdən bəri formalaşmış, xalqın yaşayışına, məişətinə daxil olmuşdur. Azərbaycan xalqının mənəvi dəyərlərini fərqləndirən, onun xarakterini qabarıqlaşdıran əlamətlərindən ibarətdir. Azərbaycan xalqına məxsus ən başlıca milli-mənəvi keyfiyyətlər bunlardır: mərdlik, köməksizə humanistlik; sözünəbütövlülük, əliaçıqlıq, səxavətlik; ailəyə sadiqlik və bağlılıq; dostluğa möhkəmlik; vətənə, torpağa bağlılıq; düzlüyə aparan inam və etiqadın müqəddəsliyi; abır, həya, ismət və onun qorunması (Azərbaycan dili və ədəbiyyatına həsr olunmuş sayt). Bu dəyərlər Azərbaycan xalqının mentalitetini, milli varlığını sürətləndirən dəyərdir.

Beləliklə, müasir Azərbaycanda dəyər proseslərinin dərk olunması belə bir nəticəyə gəlməyə imkan verir ki, sosiologiyanın klassik dövrundəki anoloji-metodoloji vasitələr müasir dəyər nəzəriyyələrinin inkişafı üçün böyük irs qoymuşdur. Klassik irs bu gün də aktualdır və müxtəlif müasir sosioloji nəzəriyyələrdə iştirak edir.

## Ədəbiyyat

1. Abbasov, N. (2009). *Mədəniyyət siyasəti və mənəvi dəyərlər*. Təknur.
2. *Azərbaycan dili və ədəbiyyatina hərs olunmuş sayt*. Azeri-org.
3. Dil'tey, V. (2003). *Opisatel'naya psikhologiya*. Eletsiya.
4. D'yurkkheym, E. (2001). *Sotsiologiya i yeye predmet, metod, prednaznacheniye*. Terra, Knizhnyy klub.
5. Golovin, D. T. *Ucheniya Marksa Vebera ob «Ideal'nykh tipakh»*. http://mynivercity.ru
6. Qaraqardılu, Y. *Sosio-kultural sistemlərin inkişaf və dəyişmə sürəclərində*. www.gun.az.tv
7. Talantova. *Teorii tsennostey v klassicheskoy i sovremennoy sotsiologii.* http://docplayer/ru/5288 3730-teorii-cennostey-v-klassicheskoy-sovremennoy-sosiologii.htmd
8. *Tsennosti kak kategoriya sotsial'noy kul'tury*. http://allrefs.ne/c3/34495 /p85
9. Spiridonova, V. A. (2004). *«Problemma tsennostey v sotsiologii»*. Avtoreferat filosofii kandidat sotsiologicheskikh nauk.
10. Şəmsizadə, N. (1996). *Azərbaycan ideologiyası*. Sabah.
11. Parsons, T. (1999). *Sistema sovremennykh obshchestv*. Aspekt Press.
12. Veber, M. (2000). *Izbrannyye proizvedeniya*. Progres.

Daxil oldu: 08.10.2024
Baxışa göndərildi: 30.12.2024
Təsdiq edildi: 04.01.2025
Çap olundu: 28.02.2025